# "Son zəng"

## Yolunuz açıq olsun!

**İyunun 14-də Bakının Binəqədi rayonundakı Əliağa Şıxlinski adına 135 nömrəli tam orta məktəbdə "Son zəng" tədbiri keçirildi.**



On birincilər tədbirdən əvvəl məktəb həyatının son anlarını birlikdə yaşamaq, son dəfə parta arxasında oturmaq, müəllimlərin son nəsihətlərini dinləmək istəyirdilər. Bu, sinif otaqları ilə bir vida, həm də unudulmaz bir xatirə idi.

Məktəbin həyətində günün ruhunu əks etdirən xüsusi abhava var idi. Səhnə rəngarəng şarlarla bəzədilmiş, pəncərələrdən Azərbaycan bayrağı asılmışdı.

Məktəbin müəllim heyəti, şağirdlər, valideynlər, qonaqlar toplaşdıqdan sonra on birincilər tədbirə dəvət olundular. Məzunlar əllərində gül dəstələri, sinələrində məzun lenti məktəb qapısından həyətə doğru qoşa addımladılar.

Ardınca üçrəngli bayrağımız gətirildi, Dövlət himni səsləndirildi. Daha sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edildi.

Sonra söz məktəbin direktoru Şəfa Qurbanovaya verildi. Tədbiri açıq elan edən direktor məzunları təbrik edərək uğurlu gələcək arzuladı.

Direktor müavini Xanım Mollayeva, on birincilərin sinif rəhbərləri Gülşən Mahmudova və Ruqiyyə Bayramova məzunlara keşməkeşli həyat yollarında inamla irəliləməyi, uğurlar dilədilər.

Ən duyğulandırıcı anlardan biri isə şəhid Əli Heydərovun anası - Gülbəniz Heydərovanın çıxışı oldu. O, oğlunun xatirəsinin əziz tutulmasına görə təşəkkürünü bildirdi, həm sevincli, həm də kədərli duyğularını bölüşərək məzunlara uğurlar dilədi.

Çıxış edən qonaqlar, müəllimlər və valideynlər məzunlara xeyir-dua verərək qeyd etdilər ki, "son zəng" məktəb həyatının son, böyük həyatın isə ilk addımının sədasıdır.

Məzunların hazırladıqları bədii kompozisiyalar, rəqslər tədbirə xüsusi ovqat qatdı.

Tədbirin ən yaddaqalan anı isə "Son zəng"in səslənməsi oldu. "Son zəng"in sədası məktəb həyətinə yayıldı.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.-15 iyun (№ 122).- S.15.